


# Heydər Əliyevin xatirəsinə ən böyük hörmətimiz onun yoluna sədaqətimizdir

**Ata vəsiyyətini yerinə yetirdiyi üçün xoşbətliyini hər bir addımda nümayiş etdirən dövlət başçısı İlham Əliyev çoxəsrlik tariximizin Zəfər səhifəsini yazmaqla Ümummilli Liderin yolunun bundan sonra da Azərbaycana daha möhtəşəm uğurlar qazandıracağını təsdiqlədi**



**"Mən bu ili "Şuşa İli" elan etmişdim. Şuşanın 270 illiyini biz çox geniş və böyük təntənə ilə qeyd etdik. Gələn il isə "Heydər Əliyev İli" elan edilib. Gələn il biz Ulu Öndərin 100 illik yubileyini qeyd edəcəyik. Heydər Əliyevin xatirəsinə ən böyük hörmətimiz onun yoluna sədaqətimizdir. Biz bu yolla gedirik və bu gün Azərbaycan reallıqları, uğurlar, qələbələr, bax, bu yolun təməlində dayanıb." Dövlət başçısı İlham Əliyevin 31 dekabr- Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində səsləndirdiyi bu fikirlər dahi şəxsiyyət Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısında xidmətlərinin aydın mənzərəsini təqdim etdi.**

Ulu öndər Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Ümummilli Liderin həyat amalının təntənəsidir. Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan ulu öndər Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirib. Hakimiyyətinin hər iki dövründə xalqa, Vətənə sevgisinin böyüklüyü biri-birindən əhəmiyyətli addımların atılmasında stimulverici amil olub. Dahi şəxsiyyət azərbaycanlı olduğu üçün qürur duyurdu.

Ümummilli lider Heydər Əliyev hakimiyyətinin birinci dövründə Azərbaycanı keçmiş İttifaqın geridə qalan respublikasından qabaqcıl respublikaya çevirdiyi kimi, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra müstəqil Azərbaycan qurdu, dövlət müstəqilliyinin əbədiliyini, sarsılmazlığını təmin etdi. Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada dayanan Ümummilli Lider Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynadı. Hansı sahəyə diqqət yetirsək qazanılan uğurların hər biri Onun adı ilə bağlıdır. Azərbaycan dahi şəxsiyyətin uğurlu, düşünülmüş və gələcəyə hesablanmış siyasəti nəticəsində bütün sahələrdə davamlı uğurlara imza atdı. Azərbaycan qısa müddətdə sabitlik məkanına çevrildi. Dövlətçiliyimizin əsasları yaradıldı. **"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir"** söyləyən ulu öndər Heydər Əliyev uğurlu neft strategiyasının əsasını qoydu. Onun müəllifi olduğu neft strategiyası ölkəmizə biri-birindən əhəmiyyətli uğurlar qazandırır. Azərbaycanın iqtisadi tərəqqisi siyasi mövqeyinin möhkəmlənməsində, ordu quruculuğu istiqamətində davamlı addımların atılmasında öz sözünü dedi. Demokratiya strateji kursumuzun əsasına çevrildi. Bir sözlə, Azərbaycan yenidən quruldu. Dahi şəxsiyyətin şah əsəri olan Azərbaycan bu gün dünyaya Günəş kimi doğur. Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq şərəfli vəzifədir.

Azərbaycanın 1993-2003-cü illərdə qazandığı uğurlar, yaradılan möhkəm təməl 2003-cü ildən bu günədək ölkəmizin ən yüksək zirvələrə doğru inamla irəliləməsini təmin etdi. Ümummilli Liderin 2003-cü ildə xalqa tarixi müraciəti Azərbaycanın bu günü üçün uğurlu başlanğıc oldu. Həmin müraciətdə dahi şəxsiyyət cənab İlham Əliyevə Özü qədər inandığını bəyan etdi. Dövlət başçısı İlham Əliyev xalqın böyük əksəriyyətinin səsini qazanaraq 2003-cü ildə Prezident seçilməsindən 17 il sonra xalqa müraciətində ata vəsiyyətini yerinə yetirdiyi üçün özünü xoşbəxt hiss etdiyini bildirdi. Bu xoşbəxtlik 30 il işğal altında olan torpaqlarımızın azadlığa qovuşması, Qarabağ münaqişəsinin tarixə qovuşması idi. Ümummilli Lider 2003-cü ildə xalqa müraciətində axıra çatdıra bilmədiyi taleyüklü məsələləri, işləri cənab İlham Əliyevin axıra çatdıracağını böyük əminliklə bildirdi. Bu gün dahi şəxsiyyətin ruhu şaddır. Qarabağ, Şərqi Zəngəzur azaddır. Şuşamız əvvəlki şöhrətini özünə qaytarır. Cıdır düzündə biri-birindən möhtəşəm tədbirlər keçirilir. Bu məkandan dünyaya mesajlarını çatdıran dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu torpaqların sahibinin biz olduğumuzu və burada daimi olacağımızı böyük qürur hissi ilə bildirir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə ardıcıl səfərləri, həmin torpaqlarımızda yeni həyatın başlanması üçün biri-birindən əhəmiyyətli addımların atılması dövlətimizin başçısının 30 ilin nisgilinə son qoymasından, həllini gözləyən münaqişənin artıq haqqın-ədalətin bərpası ilə başa çatmasından, hər bir vədinin arxasında konkret əməli işin dayanmasından sevinc hisslərini nümayiş etdirir. Cənab İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə səfəri zamanı əhali tərəfindən böyük coşqu və izdihamla qarşılanması, ünvanına göndərilən saysız-hesabsız təşəkkür və minnətdarlıq məktubları xalqın öz Liderinə, Müzəffər Sərkərdəsinə bəslədiyi ehtiramın təzahürüdür. Prezident İlham Əliyev respublikamızın sürətli inkişafından, qazanılan nailiyyətlərdən bəhs edərkən həmişə böyük fəxrlə bildirir ki, bu uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalqla Prezidentin birliyi dayanır.



Tam əminliklə demək olar ki, Azərbaycanın bütün sahələrdə qazandığı uğurlar Heydər Əliyev siyasətinin təntənəsidir. Əvvəldə də qeyd etdiyimiz kimi, ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Qarabağın incisi olan Şuşanın işğaldan azad olunması müjdəsini Şəhidlər xiyabanından xalqa çatdırarkən **"Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!"** fikirləri ilə bir daha müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin ona olan etimadını, inamını bütün istiqamətlərdə doğrultduğunu, ən əsası Qarabağ münaqişəsinin həlli ilə bağlı vəsiyyətini yerinə yetirməsindən qürurlandığını ifadə etdi. Həmin müraciətdə bu fikirlər də öz əksini tapmışdır ki, dünya azərbaycanlılarından və Azərbaycanda yaşayan insanlardan minlərlə məktub alıram. Nə qədər gözəl sözlər deyilir, nə qədər böyük dəstək göstərilir: "Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq!"

**"Bu günlərdə dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim, yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda, bu yumruq birliyimizin rəmzidir"** söyləyən dövlət başçısı İlham Əliyev bildirmişdir ki, bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq.

Azərbaycan ulu öndər Heydər Əliyevin yaratdığı möhkəm təməl üzərində inamla addımlayır. Ölkəmiz bütün sahələrdə sürətli inkişafa nail olub. Azərbaycan iqtisadi möcüzələr, ən islahatçı ölkə kimi tanınır, insanların sosial rifah halı daha da yaxşılaşır. Azərbaycanın siyasi, iqtisadi imkanları genişləndirilir, ölkəmizin beynəlxalq arenadakı mövqeləri möhkəmlənir. Bu fikir böyük inamla qeyd edilir ki, Azərbaycanın iştirakı olmadan bölgədə hansısa siyasi və iqtisadi layihənin həyata keçirilməsi qeyri-mümkündür. Azərbaycan iştirakçısı və təşəbbüsçüsü olduğu enerji layihələrinin uğurlu icrası ilə regional inkişafın aparıcı qüvvəsinə, dünyanın enerji təhlükəsizliyinin təminatçısına çevrilib. Bu gün regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.

Azərbaycan yeni dostlar, tərəfdaşlar qazanır. Dünyada etibarlı tərəfdaş kimi tanınan Azərbaycan ilə əməkdaşlıq etmək istəyən dövlətlərin sayı ilbəil artır. Bu gün Azərbaycan müxtəlif dövlətlərlə, o cümlədən Avropa İttifaqına üzv 9 ölkə ilə strateji tərəfdaşlıq əlaqələrinə malikdir. Eyni zamanda, Azərbaycanın təşəbbüsü ilə regionda yeni əməkdaşlıq formatları formalaşır, dünyanın yeni xarici siyasəti ölkəmizdə müzakirə olunur.

Azərbaycanın 2011-ci ildə 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019-2022-ci illər sədrlik etməsi, həmçinin sədrlik müddətinin üzv dövlətlərin yekdil qərarı ilə bir il uzadılması müasir Azərbaycanın beynəlxalq miqyasda nüfuzunu və qüdrətini göstərir. Azərbaycan istər ikitərəfli, istərsə də çoxtərəfli çərçivədə əlaqələrin genişləndirilməsində maraqlı olduğunu atdığı hər bir addımında təsdiqləyir.

Azərbaycanın hər günü, hər bir uğurumuz Heydər Əliyev siyasətinin təntənəsidir. Uğurlarımızın davamlılığı dahi şəxsiyyətin 2003-cü il oktyabrın 1-də xalqın müraciətini hər an xatırlamağı bir tələbə çevirir: **"Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".**



Cənab İlham Əliyev uğurlu addımları ilə bu etimadı doğrultdu, Azərbaycanı yüksək zirvələrə qaldırdı, ölkəmiz beynəlxalq əhəmiyyətli tədbirlər üçün ideal məkan kimi qəbul olunur. Azərbaycanın yerləşdiyi coğrafi məkan dövlətlər, xalqlar arasında dostluq körpüsünün daha da möhkəmləndirilməsində əhəmiyyətli rol oynayır. Azərbaycan sabitləşdirici və birləşdirici faktor kimi mövqeyini cari ildə, xüsusilə dünyanın COVID-19-la mübarizə apardığı bir dövrdə bir daha nümayiş etdirdi.

Dövlət başçısı İlham Əliyev Heydər Əliyev siyasətinə sadiqliyini hər addımda təsdiqləyir. 2003-cü ildə keçirilən andiçmə mərasimində cənab İlham Əliyev ona göstərilən etimada görə xalqa minnətdarlığını bildirərək Heydər Əliyev siyasətinə sadiq qalacağını bəyan etmişdir: **"Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".** Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bu gün dünyada beynəlxalq əhəmiyyətli layihələrin təşəbbüskarı və uğurlu icraçısı kimi tanınır. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verilib, 2014-cü ildə Avropanın enerji təhlükəsizliyində böyük rol oynayacaq Cənub Qaz Dəhlizinin təməli qoyuldu və 2020-ci ilin dekabrında tam tərkibdə istifadəyə verildi. 2017-ci ildə "Əsrin müqaviləsi" 2050-ci ilə qədər uzadılıb. Neft gəlirlərinin düzgün idarə olunması nəticəsində qeyri-neft sektorunun inkişafı daha da sürətləndirilir. Regionların inkişafına dair 3 Dövlət Proqramı icra olunub, dördüncü proqramın icrası davam edir. Son 19 ildən artıq dövrdə 2 milyondan artıq yeni iş yeri yaradılıb ki, bunların da böyük əksəriyyəti regionların payına düşür.

Bu gün Azərbaycan artıq dünyada sayı məhdud olan kosmik ölkələr sırasındadır. Üç peykimiz orbitə buraxılıb. Şübhəsiz Heydər Əliyev siyasətinin uğurlarını bir yazıda əhatə etmək qeyri-mümkündür. Ümummilli Liderin xalqımız, dövlətimiz qarşısında ən böyük xidmətlərindən biri Azərbaycanın davamlı inkişafını, gələcəyini düşünərək 2003-cü ildə inamın növbəti ünvanını xalqımıza göstərməsidir. Son 19 ilin Azərbaycanının ən yüksək zirvələri fəth etdiyi üçün qürurluyuq. Üçrəngli bayrağımızın işğaldan azad edilmiş torpaqlarımızda dalğalanmasından, hazırda cənnət məkana çevrilməsindən qürurluyuq.

Azərbaycana bu uğuru qazandıran dövlətimizin qətiyyəti, Azərbaycan Ordusunun gücü, qüdrətidir. Ordumuz dünyanın ən güclü 50 ordusu sırasında qərarlaşdığını bir daha təsdiqlədi. Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ardıcıl tədbirlər görülüb. Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində 1200 adda hərbi təyinatlı məhsul istehsal edilir. Azərbaycan Ordusu öz gücünü və döyüş qabiliyyətini 2016-cı ilin aprelində həm düşmənə, həm də dünyaya nümayiş etdirdi. Azərbaycan tarixinə zəfər səhifələrindən biri kimi daxil olmuş Aprel döyüşlərində qəhrəman ordumuz Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərinin bir qismini, ümumilikdə 2 min hektardan çox torpağı işğalçılardan təmizləyərək böyük bir əraziyə nəzarəti ələ aldı. Bu döyüşlərin ən mühüm yekunu Lələtəpə yüksəkliyinin azad olunması və bununla da Cocuq Mərcanlı kəndinin təhlükəsizliyinin təmin edilməsi oldu. 2018-ci ilin may ayında Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad edildi, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirildi.

2020-ci ilin 27 sentyabrından başlanan İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun malik olduğu imkanları bir daha dünyaya nümayiş etdirdi. Ordumuzun 300-ə qədər kəndi, 5 şəhəri, 4 qəsəbəni, xeyli sayda strateji yüksəklikləri işğaldan azad etməsi noyabrın 10-da Azərbaycanın hərbi-siyasi Qələbəsinin və Ermənistanın kapitulyasiyasının təsdiqi olan Bəyanatın imzalanması ilə nəticələndi. Azərbaycan Ordusu dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə tarix yazdı - Zəfər tarixini. Cənab İlham Əliyevin Sərəncamı əsasında Qarabağın ürəyi Şuşanın işğaldan azad edildiyi gün - 8 noyabr Zəfər Günü kimi təsis olundu. Azərbaycanın bayramları sırasına daha bir möhtəşəm, unudulmaz tarix əlavə olundu. Bu tarixi xalqımız 30 ilə yaxın idi ki səbirsizliklə gözləyirdi. Dövlət başçısı İlham Əliyev **"İndi isə qurub-yaradırıq, Qarabağı, Şərqi Zəngəzuru yenidən qururuq. Həyatımızda və ölkəmizin həyatında tamamilə yeni dövrdür. Bu quruculuq işlərində hər birimiz böyük həvəslə, bir məqsədlə iştirak edirik ki, keçmiş köçkünləri tezliklə öz dədə-baba torpaqlarına qaytaraq, dağılmış şəhər və kəndləri tezliklə bərpa edək və bütün dünyaya bir daha göstərək ki, biz böyük xalqıq. Bu gün nəinki Azərbaycan vətəndaşları, bütün dünya azərbaycanlıları başını dik tutub. Bizim üzümüz ağdır, alnımız açıqdır. Biz müzəffər xalqıq, qalib dövlətik və bu, əbədi olacaq!"** fikirləri ilə keçilən yola baxış əsasında qarşıdakı dövrün hədəflərini açıqlayır.

*Yeganə Əliyeva,*
*"İki sahil"*